**May 21, 2008 19:04**
**MƏNBƏ: Azeriblog**

**Azərbaycanın «Azərinşaatservis» şirkəti «Bakı Dairəvi I» avtomobil yolunun torpaq yatağının hazırlanmasını başa çatdırıb**

Azərbaycanın «Azərinşaatservis» şirkəti «Bakı Dairəvi I» avtomobil yolu layihəsi üzrə yolun torpaq yatağının hazırlanmasını başa çatdırıb. Bu barədə şirkətin marketinq meneceri İlkin İmaməliyev bildirib.

İ.İmaməliyevin sözlərinə görə, yolun üzərindəki kommunikasiyaların yerləşdirilməsi məsələləri öz həllini tapıb. Layihənin subpodratçısı olan «Akkord» şirkəti tərəfindən kommunikasiyaların köçürülməsi, körpünün tikintisi işləri aparılır.

Şirkət nümayəndəsinin sözlərinə görə, yolun 2009-cu ilin payızında istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Biləcəri yoxuşu ilə Lökbatan dairəsini birləşdirəcək bu yolun uzunluğu 21,5 km, layihənin ilkin ümumi dəyəri isə 49,5 mln. ABŞ dolları təşkil edir. Dairəvi yol Bakı-Rusiya sərhədi, Bakı-Ələt-Qazax-Gürcüstan sərhədi və Bakı-İran sərhədi avtomagistrallarını birləşdirəcək.

Yol 6 hərəkət zolaqlı olacaq və ümumi eni 22,5 metr təşkil edəcək.

Layihəyə Küveyt İnkişaf Fondu 14,9 mln. ABŞ dolları, Abu-Dabi Ərəb İnkişaf Fondu 10 mln. dollar, Azərbaycan hökuməti isə 3,5 mln. dollar ayırıb. Ərəb maliyyə institutları krediti 2,5% dərəcəsi ilə ilk 4 ili güzəştli olmaqla 20 il müddətinə ayırıb.